## *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*

UOT 371

***Müseyib İbrahim oğlu İlyasov***
*pedaqogika üzrə elmlər doktoru, professor*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri*

# Y.A. KOMENSKİNIN PEDAQOJİ İDEYALARI VƏ MÜASİRLİK

***Мусеиб Ибрагим оглу Ильясов***
*доктор наук по педагогике, профессор*
*заведующий кафедрой Азербайджанского Государственного Педагогического Университета*

# ПЕДАГОГИЧЕСКИЕ ИДЕИИ Я.А. КОМЕНСКОГО И СОВРЕМЕННОСТЬ

***Museyib İbrahim İlyasov***
*doctor of science in pedagogy, professor*
*head department of Azerbaijan State Pedagogical University*

# J.A. COMENIUS'S PEDAGOGICAL IDEAS AND MODERNITY

**Xülasə.** Görkəmli Çex pedaqoqu, bütün həyatını xalqın təhsilinə və tərbiyəsinə həsr etmiş Yan Amos Komenski yaratdığı pedaqoji nəzəriyyəsi ilə elmi pedaqogikanın əsasını qoymuş və onun bir müstəqil elm sahəsi kimi inkişafına böyük töhfələr vermişdir. Komenskinin pedaqoji ideyaları, yazdığı əsərlər təkcə öz dövrü üçün deyil, ondan sonrakı dövrlərdə də aktual olmuş və bu günümüzdə də aktuallıq kəsb edir. Bu ideyalar hazırkı məktəblərimiz üçün, pedaqogika elminin inkişafı üçün tükənməz bir xəzinə, istiqamət verən, yol göstərən və bir çox hallarda bələdçilik edən işıqlı bir mayakdır. Maraq doğuran əsas cəhətlərdən biri ondan ibarətdir ki, zaman bizi Y.A. Komenskidən 300 ildən də çox bir müddətinə ayırsa da onun pedaqoji ideyaları bu gün də yeni səslənir və ona müraciət edilir.
***Açar sözlər:*** *müasirlik; təlim; məktəb sistemi; didaktika; humanizm; əxlaq tərbiyəsi.*

**Резюме.** Выдающийся чешский педагог Ян Амос Коменский, посвятивший всю свою жизнь образованию и воспитанию народа, своей педагогической теорией заложил основы научной педагогики и внес большой вклад в ее развитие как самостоятельной отрасли науки. Педагогические идеи и работы Коменского были актуальны не только для его времени, но и в последующие периоды и актуальны сегодня. Эти идеи являются неиссякаемым сокровищем для наших нынешних школ, для развития педагогической науки, маяком света, который направляет и во многих случаях показывает путь. Один из интересных моментов состоит в том, что, хотя время отделяло нас от Коменского более чем на 300 лет, его педагогические идеи все еще новые и рассматриваются сегодня.
***Ключевые слова:*** *современность, обучение, школьная система, дидактика, гуманизм, нравственное воспитание*

**Summary.** The prominent Czech pedagogue Jan Amos Comenius laid the foundation for scientific pedagogy with the pedagogical theory, who devoted his entire life to education and upbringing of the people, and made a great contribution to the development of his independent science. Comenius's pedagogical ideas and works were not only for his own time, but also for the subsequent periods, and are now actual. These ideas are a bright beacon for our current schools, an inexhaustible treasure for the development of pedagogical science, guiding, guiding and guiding in many ways. One of the interesting points is that even if the time seperates Komensky from us more than 300 years, his pedagogic ideas are still considered actual and applicable.
**Key*words* :** *modernity; training; school system; didactics; humanism; moral upbringing.*

***"Yaxşı məktəbləri, yaxşı dərslikləri, yaxşı müəssisə və cəmiyyəti tərbiyə etmək üsulları ilə zəngin olan xalq xoşbəxtdir."***
***Y.A. Komenski***

*Böyük pedaqoq, elmi pedaqogikanın banisi Y.A. Komenski təlim və təhsil haqqında elə bir nəzəriyyə yaratmışdır ki, təlim texnologiyalarının inkişaf etdiyi, yeni-yeni nəzəriyyələrin meydana gəldiyi müasir dövrdə də ona üz tutulur, ondan istifadə edilir. Bu baxımdan "Komenski didaktiklərin və ümumilikdə pedaqogika elmi sahəsində çalışanların müasiridir" - deyilişini mübaliğə və ya yanlış deyilmiş bir ifadə kimi qəbul etmək doğru olmazdı. Komenski üç yüz əlli il bundan əvvəl yaşadığı dövr ərzində elə bir irs yaratmışdır ki, onlar bu gün də təzədir, aktualdır. Y.A. Komenski sanki bugünkü təhsilimizi, onun problemlərini və inkişaf istiqamətlərini çox-çox əvvəl görmüş, onun təkmilləşdirilməsi üçün özünün uzaqgörənliklə söylədiyi fikirlərini əsaslandırmış və bu sahədə böyük bir pedaqoji nəzəriyyə yaratmışdır. Maraqlı burasıdır ki, müasir dövrdə təhsildə müəyyən bir yenilikdən, innovasiyalardan danışdıqda belə, fikrimizi əsaslandırmaq üçün Y.A. Komenskinin fikirlərinə istinad edir, ona müraciət edirik. Y.A. Komenskinin pedaqoji ideyaları bu gün də yaşayır, ona üz tutulur, ondan nələrisə götürürük.*

Görkəmli çex pedqoqu, pedaqogika elminin formalaşmasında müstəsna xidmətləri olan Yan Amos Komenskinin pedaqoji nəzəriyyəsi, ideyaları haqqında dünyanın bir çox ölkələrində pedaqoji tədqiqatlar aparılmış və bunlar geniş şəkildə tədqiq edilmişdir. Görkəmli gürcü pedaqoqu D.O. Lordkipanidze "Y.A. Komenskinin didaktikası"(1949) adlı geniş həcmli monoqrafiya çap etdirmişdir. Bizim respublikamızda hələ 1992-ci ildə görkəmli elm xadimi, professor Hüseyn Əhmədovun təşəbbüsü və rəhbərliyi ilə böyük pedaqoqun anadan olmasının 400 illik münasibətilə respublika elmi konfransı keçirilmiş və Y.A. Komenskinin pedaqoji nəzəriyyələri haqqında dəyərli fikirlər səsləndirilmişdir. Pedaqogika üzrə elmlər doktoru professor, əməkdar elm xadimi F. Rüstəmov Y.A. Komenskinin 1961-ci ildə Azərbaycan dilində çap olunan, artıq bu gün əllərdə olmayan "Böyük didaktika" əsərinə ikinci həyat vermiş, onu latın qrafikasına çevirərək 2012-ci ildə nəfis şəkildə çap etdirmiş, müəllim və tələbələrin istifadəsinə vermişdir.

Y.A. Komenski respublikamızın ali pedaqoji təhsil müəssisələrində tədris olunan "Pedaqogika" və "Pedaqogika tarixi" fənninin proqramlarına daxil edilmiş və keçən əsrin 20-ci illərindən sonra bu günümüzə qədər ali pedaqoji təhsil müəssisələrində tədris olunur.

Y.A. Komenskinin "Böyük didaktika", "Dillərin açıq qapısı", "Ana məktəbi", "Ana qucağı məktəbi", "İnsani işləri yaxşılaşdırmaq haqqında ümumi məsləhət", "Yaxşı təşkil olunmuş məktəbin qanunları", "Həqiqi metodun tərifi", "Dirilmiş Forsi, yaxud məktəbdən durğunluğun qovulması" və onlarca digər pedaqoji əsərləri pedaqogikanın bir elm kimi formalaşmasında böyük rol oynadığı kimi, müasir dövrümüzdə də qiymətli ideyalarla zəngin mənbələrdir.

Y.A. Komenski özünün zəngin pedaqoji ideyaları ilə pedaqogika elminə elə bir bünövrə, möhkəm bir təməl qoymuşdur ki, İllər, əsrlər ərzində bu ideyalar öz aktuallığını qoruyub saxlamış, əhəmiyyətini itirməmiş, Avropa ölkələrinin sərhədlərini aşaraq dünyanın bir çox ölkələrinə yayılmış, ondan geniş istifadə edilmiş və indi də edilməkdədir.

İnformasiya texnologiyalarının və kommunikasiyaların yüksək sürətlə inkişaf etmədiyi ötən yüzilliklər ərzində Y.A. Komenskinin pedaqoji ideyalarının belə bir geniş miqyasda yayılması məhz bu ideyaların dərin elmi əsasa söykənməsi və sonrakı dövrlərdə də faydalı olması ilə bağlıdır. Onun pedaqogika elminin təşəkkülü, inkişafı və təhsil tarixi üçün həmişəyaşar olan bir çox ideyaları – sinif-dərs sisteminin elmi əsasda işlənilib hazırlanması, uşaq və gənclərin yaş xüsusiyyətlərinə müvafiq məktəb sisteminin yaradılması, "dərs ili" anlayışını pedaqogikaya gətirməsi, tərbiyənin böyük gücünə inam, pedaqogikaya elmi status "qazandırması", təlim və tərbiyənin həyatla əlaqələndirilməsi, humanizmi və insanpərvərliyi tərbiyənin əsasına qoyması, "məktəbi həyata, həyatı məktəbə gətirməsi" və s. kimi onlarla, yüzlərlə fikir və ideyaları bu gün də yaşayır və onlardan istifadə edilir.

"Komenski "İnsani işləri yaxşılaşdırmaq haqqında ümumi məsləhət" adlı əsərində humanizm, bərabərlik və azadlıq əsasında yenidən

qurulan insan cəmiyyəti haqqında düşünən böyük demokrat, sosial islahatçı kimi çıxış edir” (3, 7).

Y.A. Komenski özünün təlim nəzəriyyəsində məktəbi, təlimi və tərbiyəni həyatla, təbiətlə əlaqələndirmiş, insanı təbiətin bir hissəsi kimi xarakterizə etmiş, təbiətin daim inkişafda olduğunu göstərərək, insanın tərbiyə vasitəsilə inkişaf edə biləcəyini əsaslandırmış və müasirliklə səsləşən tükənməz bir xəzinə yaratmışdır. O, “insan təbiətin bir parçasıdır” - deyərək tərbiyədə təbiətəmüvafiqlik prinsipini irəli sürmüş, tərbiyənin təbiətlə, həmçinin insanın öz təbiəti ilə əlaqələndirilməsini əsaslandırmış və təbiətəmüvafiqlik metodu vasitəsilə tərbiyənin daha mükəmməl, daha şüurlu olmasını qeyd etmişdir.

Humanizm, milli və bəşəri dəyərlər, insan hüquqları, azadlığı və sağlamlığının qorunması, təbiətə və sosial mühitə qayğılı münasibət, böyüyən nəslin azadfikirlilik ruhunda tərbiyə edilməsi kimi ideyalar müasir təhsili xarakterizə edən başlıca amillərdən biri kimi aktuallıq kəsb edir. Təsadüfi deyildir ki, “Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu”nda təhsil sahəsində dövlət siyasətinin birinci əsas prinsipi humanistlik prinsipidir. Y.A. Komenski də o dövrdə məktəbi insanlıq, müdriklik məktəbi, humanistlik emalatxanası adlandırırdı. O, yazırdı ki, gəncləri təlim etmək üçün bütün tədris müəssisələri həqiqi məktəb, humanistlik emalatxanası olmalıdır. Məktəbin əsas vəzifəsi cəmiyyətdə ümumi müdrikliyi yaymaqdan ibarətdir. “Yaxşı məktəbləri, yaxşı dərslikləri, yaxşı müəssisələri və cəmiyyətin tərbiyə metodları olan xalq xoşbəxtdir”- deyən Komenski xalqın xoşbəxtliyini məhz təhsildə, maarifdə görürdü. Y.A. Komenskinin pedaqoji irsi elə ümumbəşəri və humanist ideyalarla zəngindir ki, onlar təhsilimizin müasir dövrün tələblərinə müvafiq yeni islahatlarla birbaşa səsləşir.

Y.A. Komenskinin humanizmi onun müəllimə münasibətində, müəllim haqqında söylədiyi fikirlərdə bütün incəliyi ilə görünür. O, müəllimi işıq saçan Günəşə, meyvə yetişdirən bağbana, yazı yazan yazıçıya, əsər yaradan rəssama bənzədir və müəllimlərin şagirdlərlə nəzakətlə davranmalarına, müəyyən məsələlərdə güzəştə getmələrinə böyük qiymət verirdi. Komenski yazırdı ki, müəllimlər şagirdlərin qəlbini sərt ifadələrlə sındırmasalar, onları atalıq məhəbbəti, nəvazişi və nəsihətlərlə özlərinə cəlb etsələr, keçdikləri məşğələlərin xoş və acan olduğunu onlara bildirsələr, ən çalışqan şagirdləri həvəsləndirsələr, uşaqlara şəfqətli münasibət göstərsələr onlarda biliyə həvəs oyanar, uşaqlar məktəbə gəlməyə evdə qalmaqdan daha çox həvəs göstərərlər. “Yaxşı müəllim ancaq yaxşı görünməyə çalışan yox, həm də həqiqətən yaxşı olan müəllimdir, bütün mahiyyəti ilə müəllimdir” - deyən pedaqoq “həqiqətən yaxşı”, “bütün mahiyyəti ilə müəllim olan” müəllimlərin əsas keyfiyyətlərini sadalayaraq onun şəxsiyyətini, müəllim şəxsiyyəti üçün zəruri olan keyfiyyətləri, eyni zamanda müəllimin peşəkarlığını xarakterizə edir və elə keyfiyyətlərə vurğu edir ki, bunlar müasir dövrdə də vacib peşə keyfiyyətləri kimi müəllimdən tələb olunur.

Y.A. Komenskinin pedaqoji fikirləri içərisində müəllim haqqındakı fikirləri bu gün də mühüm əhəmiyyət kəsb edir. O göstərirdi ki, öz peşəsini, tədris etdiyi fənni sevməyən müəllim cisimsiz kölgə, yağışsız bulud, işıqsız çıraqdır. Elmini, tədris etdiyi fənni sevən, daim çalışan müəllim öz kökü üzərində bitən, öz şirəsi ilə bəslənən və buna görə daim artan, yaşıllaşan, çiçəklənən, bəhrə verən ağacdır. Yaxşı müəllim uşaqların şüurunu başqa çaylardan axıdılan sularla deyil, məktəblinin şüurunda gizlənmiş idrak bulağını açıb, onun suyu ilə sulayır. Müəllim əməkdə və geyimdə sadəliyin, fəaliyyətdə gümrahlıq və əməksevərliyin, davranışda təvazökarlıq və susmaq sənətinin nümunəsi, ictimai həyatda ağıllılığın örnəyi olmalıdır.

Burada səslənən “Yaxşı müəllim uşaqların şüurunu başqa çaylardan axıdılan sularla deyil, məktəblinin şüurunda gizlənmiş idrak bulağını açıb, onun suyu ilə sulayır” - cümləsinə xüsusi diqqət yetirsək görərik ki, böyük pedaqoq çox-çox irəli gedərək məhz bu gün müəllimin qarşısında duran – şagirdlərin potensial imkanlarını üzə çıxarmaqla onların təfəkkürünü və təxəyyülünü inkişaf etdirmək tələbini hələ o dövrdə müəllimlərin qarşısına qoymuşdur.

Y.A. Komenski yazırdı: “Müəllimlər daimi nümunələr, nəsihətlər və praktikanın köməyi ilə bütün şagirdlərin ağıllarını - müdrik, dillərini – parlaq, əllərini – yazı və başqa fəaliyyət üçün mahir etməyi bilməli, istəməli və bacarmalıdırlar”.

Müasir dövrdə həlli vacib olan problemlərdən biri təlim zamanı şagirdlərin təfəkkür və

təxəyyülünün inkişaf etdirilməsidir. Bu, şagirdlərin başını biliklərlə, məlumatlarla doldurmaq deyil, onların gələcək həyata, cəmiyyətə fəal həyata hazırlığını təmin etməkdir. Bu günki həyatın, cəmiyyətin tələbi olan bu məsələ haqqında Y.A. Komenski o dövrdə yazırdı: "Şagirdlər üçün məşğələləri asan və xoşagələn məşğələlərə çevirən şəxslər (müəllimlər - M.İ.) şagirdlərin hafizəsini mümkün qədər az yükləsin və ona yalnız ən əsas cəhəti öyrətsin; qalanları isə müstəqil öyrənmək üçün təqdim etsin" (1, s. 129). Göründüyü kimi, Y.A. Komenski pedaqoji ideyalarında təkcə didaktizmdən çıxış etmir. O həm də bir mahir psixoloq kimi şagirdlərin psixi xüsusiyyətlərinə, vacib psixi keyfiyyətlərə xüsusi önəm verir və onların inkişaf etdirilməsini vacib hesab edir.

Müasir məktəbimizi və dərslərə verilən müasir tələbləri nəzərdən keçirdikdə aydın şəkildə görmək mümkündür ki, yaddaşdan təfəkkürə, hafizə məktəbindən təfəkkür məktəbinə, bir qədər də irəliyə getsək təxəyyül məktəbinə keçid kimi tələb məhz belə bir zərurətdən irəli gələrək olduqca aktuallıq kəsb edir. Burada şagirdyönlülük, nəticəyönlülük kimi məsələlər üzə çıxır və bunlara diqqətin artırılması müasir dövrün əsas tələblərindən birinə çevrilir. Hazırda məktəblərimizdə geniş şəkildə tətbiq edilən interaktiv təlim metodları dərs prosesinin elə bir inkişafetdirici mühitdə baş verməsinə səbəb olur ki, öyrədənlərin bələdçiliyi ilə öyrənənlər qarşıya qoyulan tədqiqat sualına cavab axtarmaqda böyük maraq göstərir, kollektiv işləyir, problemi əvvəldən axıradək izləyirlər. Burada hafizədən, yaddaşdan daha çox təfəkkür müstəqilliyi özünü göstərir. Problemin həlli yolları axtarılır, keçmiş biliklər də (hafizə) xatırlanır, müstəqillik də inkişaf edir. Müəllimin bələdçiliyi ilə şagirdlər axtarışda olur, fikirləşir, müqayisə edir, təhlillər aparır, nəticə çıxarırlar. Bütün bunlar məhz təfəkkürün və təxəyyülün inkişafına gətirib çıxarır ki, burada da Y.A. Komenskinin öyrədənlərin az öyrətməsi, öyrənənlərin isə çox öyrənməsi ideyası reallaşmış olur. Komenski yazırdı: "Gəncləri düzgün təlim etmək-onların başını yazıçılardan toplanmış hər cür sözlər, cümlələr, ibarələr, fikirlər yığını ilə doldurmaqdan ibarət olmayıb, şeyləri başa düşmək qabiliyyətini inkişaf etdirməkdən ibarətdir" (1, s. 139). Müasir təlim məqsədlərinin məhz bunu reallaşdırmağı tələb etdiyini nəzərə alsaq Komenskinin çox uzaqgörənliklə söylədiyi bu fikrin dəyərini aydın təsəvvür etmək olar.

Müasir müəllim biliklərin transformatoru, şagirdlərə verilən biliklərin yeganə mənbəyi deyildir. Müasir müəllim bələdçi, şagirdlərə öyrənməyin yollarını öyrədəndir. Bunu Y.A. Komenski o dövrdə belə əsaslandırırdı: "Elə yollar axtarıb kəşf etmək olsun ki, bunun sayəsində öyrədənlər az öyrətsinlər, öyrənənlər isə çox öyrənsinlər; məktəbdə səs - küy, baş gicəlləntisi, faydasız əmək az, əyləncə, sevinc və möhkəm müvəffəqiyyət çox olsun" (1, s. 37).

Komenski şagirdlər tərəfindən biliklərin əsaslı, düşünülmüş şəkildə dərk edilməsi üçün bu gün də faydalı olan belə bir müddəa ilə çıxış edir ki, şagirdlərə öyrədilən hər şeyi səbəbləri göstərərək öyrətmək, ağılın dəlilləri ilə öyrətmək deməkdir. Yəni hər şeyin yalnız necə əmələ gəldiyini öyrətmək deyil, nə üçün başqa cür ola bilməyəcəyini də göstərməkdən ibarətdir. "Çünki müəyyən bir şeyi bilmək-onu səbəb əlaqələrində dərk etmək deməkdir"(1, s. 145). Bu cəhətdən məktəbdə hər şeyi səbəbləri tədqiq etmək yolu ilə tədris etmək lazımdır.

Y.A. Komenski yazırdı ki, məktəbdə məşğələlər elə təşkil olunmalıdır ki, sonra öyrədilənlər ondan əvvəlkinə əsaslansın, ondan qabaqkılar sonrakılarla möhkəmləndirilsin. "Əsaslı təhsil alan insan öz kökü üzərində bitən, öz şirəsi ilə bəslənən və buna görə də daimi artan, yaşıllanan, çiçəklənən və bəhrə verən ağacdır."- deyirdi Komenski (1, s. 141-142). Bugünkü didaktikanın vacib tələblərindən olan varisliyin gözlənilməsi məhz bu fikirlərlə bilavasitə səsləşən fikirlərdir.

Komenski özünün didaktik təlimində təlim prosesinin qarşısında hazırkı dövrdə də zəruri hesab edilən belə bir ideya irəli sürürdü ki, təlim prosesi elə bir əsasda aparılsın ki, burada daha yüngüldən daha çətinə, yaxından uzağa və məlumdan məlum olmayana, ümumidən xüsusiyə və sadədən mürəkkəbə keçid olsun. Tədris proqramlarının əsasən xətti strukturda qurulduğunu nəzərə alsaq heç də həmişə bu qaydalara riayət etmək mümkün olmasa da, bu qaydalar indi də öz əhəmiyyətini itirməmişdir.

Komenskinin dərsliklər, məşğələlər haqqında fikirləri də bu günə qədər öz əhəmiyyətini saxlayır. Komenski kitablar haqqında qaydalar

müəyyənləşdirərək yazırdı ki, hər sinfin özünün kitabı olmalıdır. Bütün biliklər kitabda elə şərh olunmalıdır ki, heç bir şeyi başqa bir yerdə axtarmaq lazım gəlməsin, hər bir zəruri biliyi oradan tapmaq mümkün olsun. Kitabların hər biri müvafiq sinfin bütün kursunu özündə əks etdirsin. Bütün dərsliklər elə tərtib edilməlidir ki, müəllim və şagirdlər onların içərisində labirint içərisində olan kimi azmasınlar və buradan gözəl bağdan alınan həzzəuyğun bir ləzzət alsınlar (1, s. 280-281).

Elm sübut edir ki, insan hazır qabiliyyətlər və istedadla doğulmur. Bunlar yalnız imkanlar formasında olur. Təhsil və tərbiyənin başlıca məqsədi bu imkanları inkişaf etdirməkdən ibarətdir. Bu imkanlar yoxdursa arzu olunan bir istedadı inkişaf etdirmək mümkün deyildir. Y.A. Komenski bu haqda yazırdı: "İnsana kənardan daxil etməyə bir şey yoxdur, ancaq onun özündə rüşeym halında olan şey inkişaf etdirilməli, aşkara çıxarılmalı və ayrılıqda hər şeyin əhəmiyyəti göstərilməlidir" (1, s. 51). Bu fikirləri ilə Komenski müəllimlərin qarşısına şagirdlərin potensial imkanlarının üzə çıxarılması, onların təfəkkürünün və ağlının inkişaf etdirilməsi kimi mühüm vəzifələr qoyur. Eyni zamanda müəllimlərə uşaqları imkanlarından xaric olan və əlavə güc tələb edən işlərlə məşğul etdirməməyi məsləhət görür.

Y.A. Komenski qədim Yunan filosoflarının və bir sıra mütəfəkkirlərin fikirlərinə istinad edərək istər təlimdə, istərsə də tərbiyədə uşaqların fərdi xüsusiyyətlərini nəzərə almağı tələb edirdi. O yazırdı: "Bəzi adamların qabiliyyətləri iti, o birilərininki kütdür; bəzilərininki yumşaq və elastiki, o birilərininki isə sərt və yenilməzdir; bəziləri bilmək naminə biliyə meyl edir, o biriləri isə mexaniki fəaliyyətdən daha artıq zövq alırlar." Böyük pedaqoq bunlara əsaslanaraq uşaqları altı növə bölür və bu növlərin hər birinin xarakterik xüsusiyyətlərini təhlil edir. Həmçinin bu xüsusiyyətləri nəzərə alaraq uşaqlara necə yanaşmaq lazım olduğunu qeyd edir.

Y.A. Komenskinin təkcə pedaqogika tarixində deyil, ümumiyyətlə bütün tarixi dövrlər üçün zəruri olan ən böyük xidmətlərindən biri sinif-dərs sisteminin elmi əsaslarını işləyib hazırlamasıdır. Nəzərə alsaq ki, bu müddətdən keçən 400 il ərzində bir-iki yox, onlarla təlim sistemləri, təlim formaları meydana gəlməsinə və müəyyən dövrlərdən sonra digərləri ilə əvəz olunmasına baxmayaraq, sinif-dərs sistemi bu dövrlərdə mövcud olmuş, qalmış və hazırda da tətbiq olunur.

Müasir təhsilin qarşısında duran başlıca vəzifələrdən biri də onun şagirdyönlü və şəxsiyyətyönlü olmasının təmin edilməsidir. Yəni, təhsil təhsilalanların potensial imkanlarını üzə çıxarmaqla onlarda şəxsiyyət üçün vacib olan bir sıra zəruri keyfiyyətlərinin formalaşmasına şərait yaratmalı, onların təfəkkürünü inkişaf etdirməli, fəal, həyati bacarıqlara malik, təşəbbüskar şəxsiyyətin formalaşmasına səbəb olmalıdır. Təhsil prosesində şagirdlərin idrakı və hissləri inkişaf etdirilməli, onlarda sosial və kommunikasiya qabiliyyətləri formalaşdırılmalıdır. Təhsil həmçinin, onların idrakı və mənəvi tələbatlarını təmin etməklə təhsilalanların intellektini inkişaf etdirməli, nəticə etibarilə onlarda özünüinkişaf və özünütəhsil bacarıqlarını stimullaşdırmalıdır. Y.A. Komenski yazırdı: "Əgər şagirdlərdən heç biri, istəklərinə əks olaraq, hər hansı bir işə məcbur edilməzsə, o zaman heç bir şey şagirddə nifrət doğurmaz və onun ağlını kütləşdirməz." Y.A. Komenskinin bu tələbi müasir təlimin şagirdlərin marağının, tələbatlarının təmin olunması, təlimin fəallıq əsasında qurulması, pedaqoji prosesin "subyekt-subyekt", "şagird-şagird" əməkdaşlığı kontekstində təşkili və aparılması ilə müşayiət olunur.

Komenski təlimin bir sıra prinsiplərini irəli sürür: əyanilik; şüurluluq; sistemlilik və ardıcıllıq; gücəmüvafiqlik; biliklərin möhkəmləndirilməsi. Eyni zamanda tərbiyənin də şəxsi nümunə; nəsihət; təmrin; rəğbətləndirmə və cəzalandırma metodlarını göstərir. Qeyd edək ki, istər təlimdə, istərsə də tərbiyədə yeni pinsiplər və metodlar meydana gəlsə də, bu prinsiplərdən və bu metodlardan təlim və tərbiyə prosesində bu gün də istifadə olunur.

Pedaqogikaya tərbiyənin böyük gücünə və imkanlarına inam yeni fikrini pedaqogikaya gətirən Y.A. Komenskinin didaktik görüşləri ilə yanaşı, tərbiyəvi fikirləri də bu günümüz üçün əhəmiyyətlidir, aktualdır. Onun əxlaq, mənəviyyat, müdriklik, xeyirxahlıq və digər bir sıra keyfiyyətlər haqqında fikirlərinin birbaşa dinlə, möminliklə bağlılığı onu deməyə əsas verir ki, o, xurafat, sxolastika, mövhumat deyil, dinin mənəvi kamilliyə çatdıra bilən təsir imkanlarından

tərbiyədə istifadəni zəruri saymış və bununla uşaqların düzgün tərbiyəsində dindən istifadəni əsas vasitələrdən biri hesab etmişdir. "Bütövlükdə bütün insanlar insanlıq üçün tərbiyə olunmalıdır" – deyən Komenski bunu deməklə təkcə öz müasirlərinə deyil, həm də gələcək nəsillərə, tərbiyə ilə məşğul olacaq insanlara tərbiyənin əsas məqsədi və mahiyyəti haqqında mühüm proqram vermişdir. Həmçinin, sübut etməyə çalışmışdır ki, cəmiyyətin mənəvi cəhətdən formalaşmasında böyük güc məhz tərbiyə məxsusdur.

"Təbiət hər yerdə nümunə göstərir" - deyən Komenski tərbiyənin bir sıra metodları ilə yanaşı nümunəyə böyük önəm verir və müəllimlərlə, valideynlərlə yanaşı gənclərin yoldaşlarının nümunəsi ilə tərbiyə olunmasını yüksək qiymətləndirir və bununla da onların məktəbdə bir yerdə olmalarını faydalı hesab edir. Komenski yazır: " gəncləri yenə də birlikdə, çoxlu gənclər yığılmış yerdə tərbiyə etmək daha məqsədəuyğundur, çünki birinin digəri üçün nümunə olacağı və onları iş üçün ruhlandıracağı şəraitdə daha böyük fayda və zövq almaq olar" (1, s. 67).

Komenski qeyd edir ki, xüsusən uşaqlıq dövründə nümunə nəsihətlərdən daha güclü təsir göstərir və onların fəaliyyətini istiqamətləndirir. Başqalarının bir işi necə gördüyünü əyani olaraq uşaqlara göstərdikdə uşaqlar onu heç bir əmr, göstəriş olmadan yerinə yetirirlər.

Y.A. Komenski məktəbdə artıq şeylərin, həyat üçü lazım olmayan biliklərin öyrədilməsinə qarşı çıxırdı. O qeyd edirdi ki, "hər şey məktəb üçün deyil, həyat üçün öyrədilməlidir, belə ki, məktəbi tərk edən vaxt heç bir şey itib havaya getməsin"(1, s. 172). Bəs bu gün məktəblərimizdən nə tələb olunur? İlk növbədə həyati bilik və bacarıqlara malik olan şəxsiyyət yetişdirmək. O bilik və bacarıqlar ki, rəqabətə davamlı olsun, həyatda insanlar üçün lazım olsun, həyati əhəmiyyətə malik olsun.

Pedaqogika tarixində ilk dəfə olaraq irəli sürülmüş və elmi şəkildə əsaslandırılmış "Ana dili məktəbi" ideyası Y.A. Komenskinin əbədi və hazırda da öz əhəmiyyətini saxlayan ideyaları içərisində başlıca yerlərdən birini tutur. "Latın məktəbindən əvvəl ana dili məktəbi olmalıdır" – ideyasını irəli sürən böyük pedaqoq bunu elə dəlillərlə əsaslandırmışdır ki, həmin dəlillər Y.A. Komenskidən çox-çox sonralar da Qərbi Avropada, Rusiyada, həmçinin Azərbaycanda da görkəmli pedaqoqlar, maarifçilər tərəfindən təlimin ana dilində aparılması ideyasının yaranmasına və möhkəmlənməsinə səbəb olmuşdur. Y.A. Komenski bu münasibətlə altı dəlil irəli sürürdü:

1. Bütün şəxslər bütün bəşəri sahələrdə təhsil almalıdır.

2. Hamıda bütün xeyirxahlıqlar tərbiyə olunmalıdır.

3. Altıncı yaşda kimin hansı peşə – elmlərlə məşğuliyyətlərə və sənətlərə yararlı olduğunu qət etmək vaxtından əvvəl görünür. Tək varlıların, adlı-sanlı adamların və ya məktəb sahiblərinin uşaqları yüksək adlar üçün doğulmamışlar ki, latın məktəbləri ancaq onlar üçün açılsın, qalan uşaqlar ümidsizliklə oraya buraxılmasın.

4. Bizim ümumi üsulumuz təkcə latın dilini nəzərdə tutmur, həm də eyni dərəcədə bütün xalqların ana dillərini inkişaf etdirmək yollarını axtarır.

5. Ana dilinə yiyələnmədən adama xarici dil öyrətmək – uşağa yeriməyi öyrətmədən at minməyi öyrətmək kimi bir şeydir.

6. Real təhsilə meyl göstərdiyimiz üçün şagirdlər şeylərin adlarını göstərən ana dili kitablarının köməyi ilə eyni bir asanlıqla xarici aləmə aid olan şeyləri öyrənməyə keçə bilərlər.

Bu müddəaları ilə Y.A. Komenski ana dili məktəbini heç bir silki və cinsi fərq olmadan bütün uşaqlar üçün eyni tuturdu və göstərirdi ki, gəncləri erkən yaşlardan bir-birindən ayırmaq və onlardan bəzilərinə özlərini başqalarından yüksək tutmaq və onlara nifrət etmək üçün bəhanə vermək lazım deyildir. Hamını birgə aparmaq, mümkün olduğu qədər birgə aparmaq lazımdır. O bununla "Ana dili məktəbi"ndə keçiləcək dərslərin, fənlərin nələrdən ibarət olacağını və şagirdlərə hansı biliklər veriləcəyini də qeyd edirdi.

Böyük pedaqoq bu məqsədə nail olmaq üçün yararlı olan vasitələri – sinifləri, kitabları da qeyd edir, onların xüsusiyyətləri haqqında müəyyən faydalı fikirlər irəli sürür. Y.A. Komenski göstərir ki, hər bir sinfin özünəməxsus kitabları olmalıdır. Bu kitablar əsasən məzmuna görə deyil, formasına görə bir-birindən fərqlənməlidir. Kitablar ümumidən xüsusiyə prinsipi ilə, yaraşıqlı tərtib olunmalı, uşaqların yaş xüsusiyyətlərinə uyğunlaşdırılmalı və bütün ana dilini əhatə etməlidir. Həmçinin bütün texniki terminlər ana dilində olmalıdır.

Y.A. Komenski ana dilini xarici dilləri öyrənmək işində əsas vasitə hesab edərək göstərirdi ki, əgər uşaqlar başqa xalqların dillərini öyrənəcəklərsə, bu, ana dili məktəbindən latın dili məktəbinə keçid dövründə olmalıdır. Yəni, uşaqlar əvvəlcə ana dilini, onun incəliklərini mənimsəməli, sonra isə başqa dilləri öyrənməlidir. Çünki, təcrübə də bunu təsdiq edir ki, xarici dillər o zaman daha yaxşı öyrənilir ki, uşaqlar öz doğma dillərini daha yaxşı mənimsəmiş olsunlar. Bu, həm də ona görə belə olmalıdır ki, böyüyən nəsil öz doğma dilləri vasitəsilə öz milli mədəniyyətini, mənsub olduğu xalqın adət-ənənələrini, yaratdığı mənəvi dəyərləri dərindən mənimsəsinlər, onu unutmasınlar.

Ana dilini xalqın tərbiyəçisi hesab edən Rus elimi pedaqogikasının banisi K.D. Uşinskinin "Ana dili" məqaləsində ifadə etdiyi aşağıdakı fikirləri Y.A. Komenskinin bu fikirləri ilə necə də həmahəng səslənir. K.D. Uşinski yazırdı: "Uşaq ana dilini öyrənərkən yalnız şərti səsləri öyrənmir, o eyni zamanda, ana dilinin doğma döşündən mənəvi həyat və qüvvət içir. Ana dili təbiəti ona heç bir tərbiyəçinin izah edə bilmədiyi bir şəkildə izah edir; o, uşağı onu əhatə edən adamların xarakteri ilə, içərisində yaşadığı cəmiyyətlə, onun tarixi ilə, onun istəkləri ilə heç bir tarixçinin tanış edə bilməyəcəyi bir tərzdə daxil edir; nəhayət, o elə məntiqi anlayışlar və fəlsəfi görüşlər verir ki, əlbəttə, bunu heç bir filosof uşağa verə bilməz." Komenski K.D. Uşinskidən hələ iki əsr əvvəl bunu görmüş və təlimin ana dilində aparılmasının əhəmiyyəti və zəruriyyəti haqqında özünün qiymətli fikirlərini irəli sürmüşdür.

Y.A. Komenskinin pedaqoji nəzəriyyəsində onun əxlaq tərbiyəsi haqqında fikirləri də maraq doğurur. Komenski "Böyük didaktika" əsərində əxlaqı inkişaf etdirməyin on altı qaydasını irəli sürür. Bu qaydaların hamısının əsasında xeyirxahlıq (müdriklik, mötədillik, mərdlik, ədalətlilik) kimi yüksək əxlaqi hisslər dayanır ki, bunu da inkişaf etdirməyin sadalanan bütün metodları və vasitələri müasir dövrdə də əxlaq tərbiyəsinin məzmununda xüsusi yer tutur. Bu qaydalardan əlavə Komenski digər əsərlərində də əxlaq tərbiyəsində bu gün də istifadə edilən bir sıra metod və vasitələrinə, xüsusən, nümunə, adətlər, rejim, sinifdənkənar tədbirlər, oyun və digərlərinə xüsusi önəm verir.

Beləliklə, Y.A. Komenskinin pedaqoji ideyalarının mütərəqqiliyi, əsərlərinin kökündə dayanan humanizm, elmlik, təbiətəmüvafiqlik, bəşərilik və novatorluq onu deməyə əsas verir ki, o təkcə dünənin, bu günün deyil, həm də gələcəyin pedaqoqudur. Onun əsrləri keçib gələn ideyaları, fikirləri, nəzəriyyəsi bu günümüzlə səsləşdiyi kimi, gələcəyimizlə, gələcək məktəblə, pedaqogikanın və pedaqoji fikrin inkişafı ilə də səsləşəcəyi aydın görünür. Komenski gələcəyi arzu edərək gələcəyin müasiri kimi böyük bir həyat qazandı. O, öz dövrünün vətəndaşı olmaqla qarşısına qoyduğu böyük məqsədə - insanlığı inkişaf etdirmək məqsədinə xidmət etməklə sonrakı dövrlər üçün də həyatını əbədiləşdirmiş oldu.

Y.A. Komenski təkcə öz dövrü üçün deyil, özündən sonra gələcək yüzilliklər üçün də yeni olan pedaqoji irs yaratmış novator pedaqoqdur. Onun ümumbəşəri əhəmiyyət daşıyan pedaqoji nəzəriyyələr səviyyəsinə yüksəlmiş bir çox ideyaları, o cümlədən sinif - dərs sisteminin yaradılması, tərbiyənin böyük gücünə və imkanlarına inam, uşaqların ilk təhsilinin ana dilində aparılması, məktəb sisteminin uşaqların yaş xüsusiyyətlərinə müvafiq təşkili, bu gündə də didaktikanın əsas prinsipləri hesab edilən bir çox prinsiplərin əsaslandırılması, tərbiyə metodları haqqında fikirləri və onlarla-yüzlərlə digər ideyaları bu günümüzdə də pedaqogika nəzəriyyəsini və tarixini zənginləşdirir. Bunlar elə baxışlar, elə ideyalardır ki, bundan çox-çox illər sonra da onlara müraciət olunacaq, onlardan istifadə ediləcəkdir.

**Problemin aktuallığı.** Görkəmli pedaqoq, elmi pedaqogikanın banisi Y.A. Komenskinin pedaqoji irsi həmişəyaşar və bu gün də təhsilimizin inkişaf etdirilməsinə töhfə verə bilən yeni ideyalarla zəngindir. Bu ideyalarda tarixiliklə müasirlik bir vəhdət təşkil edir. Onların müasir təhsillə əlaqələndirilməsi problemi yeniləşdirir və onu aktuallaşdır.

**Problemin yeniliyi.** Apardığımız tədqiqatın başlıca məqsədi Y.A. Komenskinin müasir təhsil sistemi üçün vacib olan, üç əsrdən çox vaxt keçməsinə baxmayaraq indi də aktual olan fikirlərini müasir təhsilin tələbləri və inkişaf istiqamətləri kontekstində təhlilə cəlb etməkdən, onların müqayisəli şəkildə bu gün də faydalı olduğunu nəzərə çarpdırmaqdan ibarətdir.

**Problemin praktik əhəmiyyəti**. Y.A. Komenskinin pedaqoji ideyalarından müasir təhsilimizin inkişaf istiqamətində istifadə etməkdə praktik müəllimlər, pedaqoqlar, gənc tədqiqatçılar geniş faydalana bilərlər.

**Ədəbiyyat:**

1. Komenski Y.A. Böyük didaktika / Tərtib edəni prof. F.A. Rüstəmov. Bakı: Elm və təhsil, 2012.
2. Y.A. Komenskinin anadan olmasının 400 illiyinə həsr edilmiş respublika elmi-praktik konfransının tezisləri. Bakı: ADPU, 1992.
3. История педагогики и современность. Л.: ЛГПИ им. А.И.Герцена, 1970.
4. Лордкипанидзе Д.О. Ян Амос Коменский. М.: Педагогика, 1970.

**E-mail**: museyibilyas@gmail.com

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok., dos.* **E.R. Hüseynova**

**Redaksiyaya daxil olub:** 03.03.2021